# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN HÜQUQİ ASPEKTLƏRİ

**"Uzun illər ərzində öz müstəqilliyini itirmiş Azərbaycan xalqının bir çox milli-mənəvi dəyərləri deformasiyaya məruz qalmış, tarixin yalnız şifahi yaddaşına çevrilmişdir. Keçmiş Sovet dövlətinin kommunist ideoloji mühiti isə dini-milli adət və ənənələrimizin öyrənilməsinə və təbliğinə qadağalar qoymuşdur.**

**Yeni adət və ənənələr adı altında əsasən sosialist həyat tərzinin mahiyyətini və məzmununu ifadə edən ideoloji, siyasi xarakterli mənəvi cəhətlər diqqət mərkəzinə çıxarılmışdır. Sözsüz ki, xalqımıza, onun milli mənəvi-əxlaqi keyfiyyətlərinə və iradəsinə uyğun olmayan cəhətlər də hakim zümrələr tərəfindən bədii sənət aləminə diqtə edilmişdir". (1, 3) Sovet məkanında mədəniyyət və incəsənət kommunist əxlaqı prinsiplərinin emosional vasitələrinə çevrilmişdir.**

**Mədəni inkişafın sosialist realizmi metoduna, üslubuna uyğunlaşdırılmasına üstünlük verilmişdir.**

***Ancaq bu da bir həqiqətdir ki, Sovet hökuməti zamanı "Əhali arasında savadsızlığın aradan götürülməsi haqqında" (1919), "Məcburi ilk orta təhsil haqqında"(1930), "Xalq təhsili haqqında" (1973), "Mədəni və tarixi abidələrin istifadəsi və müdafiəsi haqqında" (1978) və s. qanun və qətnamələr qəbul edilmiş və bu qanunları pozanların cinayət və inzibati məsuliyyətə cəlb edilməsi nəzərdə tutulurdu.***

1934-cü ildə SSRİ Yazıçılar, Bəstəkarlar və Rəssamlar İttifaqları yaradılsa da, eyni zamanda onlara nəzarət məqsədi ilə hökumət yanında incəsənət işləri üzrə komitə yaradıldı. Ancaq bu dövrdə də Azərbaycan sənətkarları tarixi varislik prinsipindən imtina etməmiş, milli-ənənəvi keyfiyyətləri müasirləşdirməyi, onları mənəvi stimula çevirməyi bacarmışlar. Yəni mədəniyyət və incəsənət ənənəvi olaraq bədii-estetik mahiyyətini itirməmiş, keçmiş irsimizin tarixi təcrübəsindən bəhrələnə bilmişdir.

"Mədəni inqilab" - kommunist ideologiyasının ictimai şüurun bütün formaları üzərində inhisarının təmin olunması, formaca milli, məzmunca sosialist mədəniyyətin yaradılması bu məqsədə xidmət edirdi.

1935-36-cı illərdəki kütləvi repressiyalar Azərbaycan ziyalılarından da yan keçməmişdir. Repressiyaların ilk qurbanları içərisində H.Cavid, M.Müşfiq, T.Şahbazi, S.Mümtaz kimi istedadlı, savadlı ziyalılar da var idi.

Proletariata lazım olmayan qədim kitablar cəhalət, fanatizm mənbəyi kimi damğalanır, məhv edilirdi. 1930-cu illərdə əvvəllər rəsmi şəkildə qeyd olunan, hətta 1921-ci ildən qeyri-iş günü elan edilən Novruz bayramının "əksinqilabi xarakteri üzə çıxarılmış", onun keçirilməsinə qadağa qoyulmuşdur. "Azərbaycanın müstəqillik əldə etməsindən sonra Novruz bayramı dövlət səviyyəsində qeyd olunmağa başladı ki, bu da tarixi köklərə qayıdışın, milli-mənəvi dəyərlərə qayğının güclənməsini şərtləndirdi" (5,14). 30-cu illərin əvvəllərində milli musiqi alətləri olan tar, kamança, saza qarşı geniş kampaniya başlanmışdır. Bu mövzuda açıq diskussiya - "tarın məhkəməsi" keçirilmişdi.

Müharibədən sonrakı illərdə Kommunist Partiyası cəmiyyətdə öz mənəvi dəyərlərini daim möhkəmləndirməyə çalışırdı. Ölkə rəhbərliyi çalışırdı ki, adamlar sovet həyat tərzini səadət kimi qəbul etsin, beynəlmiləlçilik bayrağı altında öz milli dəyərlərinə la-

qeyd qalsınlar; vətəndaşlar ən ədalətli cəmiyyət qurulduğuna, partiyaya və onun liderlərinə inansın, cəmiyyətin daim işıqlı gələcəyə doğru irəliləməsinə əmin olsunlar və bu işə hamılıqla xidmət etsinlər. Bunun üçün ən mühüm vasitə isə ictimai şüurun bütün formaları - elm, əxlaq, din, hüquq, ədəbiyyat, incəsənət və s. üzərində hakim "kommunist" ideologiyası ehkamlarının rəsmi inhisarını təmin etmək idi.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası bu məhdud çərçivədən çıxıb yeni suveren dövlətin statusuna uyğun formalaşmağa başlayıb. "Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir" (4,7). Azərbaycan müstəqillik qazandığı 19 il ərzində müxtəlif mədəni mərhələlərdən keçib.

**Mədəniyyət və incəsənətimizin bugünkü səviyyəyə gəlib çatmasında, dünya xalqları tərəfindən tanınaraq sevilməsində onun himayədarı, qayğıkeşi ümummilli liderimiz Heydər Əliyevin xidmətləri olduqca böyükdür. Bir dövlət başçısı kimi Heydər Əliyev sənət adamlarına daim qayğı göstərir, gənc istedadları dəstəkləyir, onları yeni yaradıcılıq uğurlarına ruhlandırırdı. O, respublikamızda ilk dəfə olaraq məktəb yaşlı uşaqlar arasında böyük istedadın cücərtilərini aşkar edərək onların ən istedadlılarını fərqləndirmək üçün "Qırmızı kitab" açdırdı və ora adı düşən hər kəsə Prezident təqaüdü təyin etdi. Bu şərəfli təqaüdə layiq görülən neçə-neçə yeniyetmə hazırda mədəniyyət və incəsənətin müxtəlif sahələrində çalışır, böyük uğurlar qazanırlar. Ulu öndərin incəsənət xadimləri ilə hər bir görüşü əlamətdar tarixi hadisəyə çevrilirdi.**

Bu gün Azərbaycanın həyatında yeni bir mərhələ yaşanmaqdadır. Prezident İlham Əliyevin son bir neçə ildə mədəniyyətimizlə bağlı qərarları bizi yeni mədəni anlayışa çağırır: "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" (2004), "İfaçıların, fonoqram istehsalçıların və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə" (2005), "YUNESCO-nun qeyri-maddi mənəvi irsin qorunması haqqında Konvensiyanın təsdiq edilməsi barədə" (2006) Azərbaycan Respublikasının Qanunları buna bariz nümunədir.

Mədəniyyət sahəsində Azərbaycan Respublikası YUNESCO (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət Təşkilatı), İCESCO (İslam Konfransının Təhsil, Elm və Mədəniyyət Təşkilatı), Avropa Şurası kimi beynəlxalq və regional qurumlarla əməkdaşlıq edir və layihələrdə iştirak edir. Mədəniyyətin müxtəlif növ - maddi, maliyyə, kadr və informasiya resurslarından istifadə etməklə və yalnız diqqətlə düşünülmüş, yaxşı hazırlanmış və müasir tələblərə cavab verən qanunvericilik vasitəsilə idarə olunması qəbul edilmişdir. Bu səbəbdən, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl qanunların hazırlanması, qəbul edilməsi və tətbiq olunması müstəsna əhəmiyyət kəsb edir. Mədəni sərvətin qorunub saxlanması və istifadəsi ölkənin əsas Qanununda - Azərbaycan Respublikasının Konstitusiyasının maddələrində öz əksini tapmışdır: mədəniyyət hüququ (maddə 40), yaradıcılıq azadlığı (maddə 51), tarix və mədəniyyət abidələrinin qorunması (maddə 77). Azərbaycan Respublikasının birinci çağırış (1995-2000) Milli Məclisinin mədəniyyət sahəsilə bağlı qanunvericilik fəaliyyəti ilk gündən xeyli intensiv olmuşdur: "Azərbaycan Respublikasının Müəlliflik Hüquqları Agentliyi haqqında" (1993), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "Kinematoqrafiya haqqında" (1998), "Memarlıq fəaliyyəti haqqında" (1998), "Kitabxana işi haqqında" (1998 ) və sair.

Milli Məclisin mədəniyyət məsələləri üzrə daimi parlament komissiyası və sosial qanunvericilik şöbəsi mədəniyyətin hüquqi özülünü təmin edir. Mədəniyyət üzrə mütəxəssislər Avropa Şurasının mədəniyyət prioritetlərinin, eləcə də Azərbaycanın reallıqları və spesifik özəlliklərinin hökmən əks edilməsinə çalışırlar.

Bunda da əsas məqsəd səmərəli və təsirli, zamanın ruhuna uyğun, mədəniyyət fəaliyyətinin bütün subyektlərinin hüquq və maraqlarını təmin edən, müasir daxili və xarici tələblərə cavab verən qanunlar yaratmaq olmuşdur.

Qəbul edilmiş qanunvericilik aktlarına "Mədəniyyət haqqında" (1998) kimi bütövlükdə mədəniyyət sahəsini tənzimləyən qanun və "Kinematoqrafiya haqqında" (1998), "Muzeylər haqqında" (2000), "Nəşriyyat işi haqqında" (2000) və s. bu kimi mədəniyyət fəaliyyətinin konkret sahə və növlərilə bağlı olan qanunlar daxildir. Mədəniyyət haqqında qanunda, hər şeydən əvvəl, dövlət siyasətinin prinsipləri, məqsədləri və vəzifələri ifadə olunmuş, həmin sahədə mərkəzi (dövlət) və yerli (bələdiyyələr) icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyən edilmişdir.

Bu qanunla hər bir şəxsin yaradıcılıq hüquqları və azadlıqları, beynəlxalq əlaqələrin və əməkdaşlığın inkişafı, habelə mədəniyyət sahəsində dövlətin antiinhisar siyasəti, milli özünəməxsusluğun, o cümlədən həm Azərbaycan xalqının, həm də tarixən Azərbaycan Respublikasında yaşayan etnik qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi, mədəniyyət fəaliyyətilə məşğul olan ictimai birliklərin və təşkilatların yaradılması imkanları təmin olunur.

Bu cür qadağaların real şəkildə fəaliyyət göstərə bilməsi məhkəmə proseduru vasitəsilə təmin edilir. Mədəniyyət fəaliyyətinə digər müdaxilə formalarına qanunla icazə verilmir. Azərbaycanın mədəniyyət siyasətinin prioritet problemlərindən birinə - mədəni irsin qorunub saxlanılmasına gəldikdə isə bu məsələ artıq hüquqi planda "Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında" (1998), "Milli Arxiv Fondu haqqında" (1999), "Kitabxana işi haqqında" (1998) qanunların qəbul edilməsi sayəsində həll edilmişdir. Tarix və mədəniyyət abidələrinin mühafizəsi ilə bağlı bütün problemlərin hüquqi cəhətdən tənzimlənməsi beynəlxalq konvensiyalara, o cümlədən "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 1993-cü il tarixində qəbul edilmişdir), "Arxeoloji abidələrin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyası (30 sentyabr 1997-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir), "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Paris Konvensiyasını (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 16 dekabr 1993-cü il tarixində qəbul edilmişdir), "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasını (Azərbaycan Respublikası tərəfindən 20 oktyabr 1999-cu il tarixli qanunu ilə qüvvəyə minmişdir), "Oğurlanmış və qeyri-qanuni aparılmış mədəni dəyərlər haqqında" (1995) konvensiyalara, həmçinin YUNESKO-nun və onun nəzdində fəaliyyət göstərən beynəlxalq təşkilatların (İKOM, İKOMOS və İKKROM) və mədəni dəyərlərin mühafizəsi məsələləri ilə geniş şəkildə məşğul olan digər beynəlxalq qurumların layihə və tövsiyələrinə uyğun olaraq həll edilmişdir (6, 24-25).

Azərbaycan YUNESKO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə sıx əməkdaşlıq edir; 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi "İçərişəhər, Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə" Ümumdünya İrsi Siyahısına daxil edilmişdir. Mədəni irsin qorunub saxlanılması sahəsində bir çox ölkələrin iş təcrübəsi öyrənilir. Son onilliklərdə hökumətlər üçün, qanunvericilikləri, mədəni mühitin və irsin qorunmasını yeni məcraya çıxarmaq, maliyyə institutları və yaxud infrastrukturları təsis etmək tendensiyası xarakterik olmuşdur.

**Beləliklə, apardığımız təhlili yekunlaşdıraraq belə bir nəticəyə gəlirik ki, müasir Azərbaycan Respublikasının mədəni siyasəti ilk növbədə 19 il müstəqillik bayrağı altında yaşayan dövlətin siyasətidir. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi respublika olduğunu öz mədəni siyasətində də göstərir və beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.**

● **Cəmilə MƏMMƏDOVA,**
***Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin mədəni irs şöbəsinin əməkdaşı***

## Ədəbiyyat

1. İlqar Hüseynov. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı, "Mars-Print" 2002.
2. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu. Bakı, "Elm", 2001.
3. Mədəniyyət fəaliyyətinə aid qanunlar toplusu. Bakı, "Nağıl evi", 2003.
4. Prezident İlham Əliyev və mədəniyyət. 2 cilddə (I cild), Bakı, "İdeal-Print", 2008.
5. Prezident İlham Əliyev və mədəniyyət. 2 cilddə (II cild), Bakı, "İdeal-Print", 2008.
6. Tarixin daş yaddaşı: Metodik vəsait / Tərtibçi Səfərəliyeva G, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası - Bakı, 2009.